Təsisçi: Azərbaycan Tibb Universiteti

# Təbib

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 20 (1703) 30 noyabr 2019 - cu il Qiyməti 50 qəpik

# Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak edib

**Noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə mərasim keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib. Bütün Azərbaycan xalqını Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edərək universitetin bütün kollektivinə yeni uğurlar arzulayıb.

Ölkə başçısı Bakı Dövlət Universitetinin Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə təsis edildiyini, Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərdiyini vurğulayıb: «Xalq Cümhuriyyətinin qurucuları yaxşı anlayırdılar ki, savadsız cəmiyyətdə güclü müstəqil dövlət qurmaq mümkün deyil. Baxmayaraq ki, gənc respublika böyük çətinliklərlə üzləşmişdi və ölkə ərazisinə tam nəzarət edə bilmirdi, bu qərar bir daha respublikanın niyyətini, qurucuların siyasətini əks etdirir. Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr vermişdir»...




## BU SAYIMIZDA



## UNİVERSİTETİN ELMİ ŞURASINDA

2

## “Miqrasiya könüllüləri” ATU-nun əcnəbi tələbələrinə kömək edəcək



3



## Professor Əzəm Ağayevin 75 illik yubileyinə həsr olunmuş anım tədbiri keçirilib

5

## “Allerqologiya və kliniki immunologiyanın müasir aspektləri” mövzusunda elmi-praktik konfrans

5



# Universitetin Elmi Şurasında rezidentura təhsili mərhələsində həkim-mütəxəssislərin hazırlanmasının vəziyyəti müzakirə olunub

**Noyabrın 26-da Böyük Elmi Şuranın növbəti iclası keçirildi. İclası açan ATU- nun rektoru, professor Gəray Gəraybəyli gündəliyə keçməzdən öncə universitetin ictimai, elmi-mədəni həyatında böyük xidmətləri olan Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımovu 50 illik yubileyi münasibətilə təbrik edərək onun fəaliyyətini yüksək qiymətləndirdi.**



Göstərilən diqqətə görə təşəkkürünü bildirən C.Qasımov ömrünün yarısından çoxunun Azərbaycan Tibb Universiteti ilə bağlı olduğunu vurğuladı. O, bu sahədəki əməyinin yüksək dəyərləndirildiyindən məmnun olduğunu söyləyərək bundan sonra da öz doğma kollektivinə layiqincə xidmət edəcəyini dedi.

Sonra rezidentura şöbəsinin müdiri, professor Rizvan Məmmədovun "Azərbaycan Tibb Universitetində rezidentura təhsili mərhələsində həkim mütəxəssislərin hazırlanmasının vəziyyəti və kollektiv qarşısında duran vəzifələr" barədə hesabatı dinlənildi.

Respublikamızda təhsil və səhiyyə sistemini Avropa Standartlarına İnteqrasiya etmək yolunda aparılan islahatların ildən-ilə inkişaf etdiyini vurğulayan məruzəçi həkim və əczaçı kadrların hazırlanması işində universitetimizin xeyli nailiyyətlər əldə etdiyini, müasir tələblərə cavab verən həkim-mütəxəssis və əczaçı kimi yetişmələri üçün rezident və magistrlərin dövlətimiz tərəfindən hərtərəfli qayğı ilə əhatə olunduğunu dedi.

Şöbənin fəaliyyəti haqqında məlumat verən natiq bildirdi ki, hal-hazırda 36 ixtisas üzrə I kursda 214, II kursda 187 nəfər, III kursda 86 nəfər, IV kursda 114 nəfər və V kursda 45 nəfər olmaqla cəmi 668 nəfər rezident təhsil alır ki, onlardan da 51 nəfəri ödənişli əsaslarla təhsil alan əcnəbi vətəndaşlardır.

Hesabat dövrü ərzində 2018-ci ildə 26 nəfər, 2019-cu il ildə isə 14 nəfər olmaqla müxtəlif səbəblərdən rezident sıralarından xaric edilmişdir.

Tədris ili ərzində 30 nəfər sosial və akademik məzuniyyətə çıxmış, 13 nəfərin təhsil müddəti isə analıq məzuniyyətində olduqlarına görə uzadılmışdır. 2018-ci ilə 141 nəfər, 2019-cu ildə isə 131 nəfər Azərbaycan Tibb Universitetində rezidentura təhsilini başa vurmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 №-li qərarına əsasən rezidentura hazırlığının 40 ixtisas üzrə aparıldığını deyən məruzəçi növbəti tədris ilindən həmin qərara Nazirlər Kabinetinin 15 mart 2019-cu il tarixli 103 №-li qərarı ilə dəyişikliklər olunduğunu vurğuladı:. "Bu dəyişikliklərə görə yeni ixtisalar yaradılmış, eyni zamanda terapiya-daxili xəstəliklər, mikrobiologiya-tibbi mikrobiologiya, genetika-tibbi genetika sözləri ilə əvəz edilmişdir. İmmunologiya ixtisası ləğv edilərək allerqologiya və immunologiya ixtisası kimi adlandırılmışdır. Psixiatriya ixtisası üzrə təhsil müddəti 2 ildən 3 ilədək uzadılmışdır. Stomatologiya ixtisası ləğv edilərək 6 yeni ixtisas yaradılmışdır. Bundan başqa ailə təbabəti, nüvə təbabəti, uşaq endokrinologiyası, uşaq və yeniyetmə psixiatriyası, neonatologiya, uşaq kardiologiyası, uşaq nefrologiyası, uşaq nevrologiyası, uşaq qastroenterologiyası, uşaq urologiyası, uşaq yoluxucu xəstəlikləri, uşaq ürək-damar cərrahiyyəsi ixtisasları yaradılmışdır. Növbəti ildən bu ixtisaslar üzrə qəbul aparılacaqdır".

Sözünə davam edən məruzəçi dedi ki şöbənin əsas məqsədindən biri rezidentlərin kliniki hazırlıqlarını yaxşılaşdırmaq və müasir tibbi tələblər səviyyəsinə çatdırmaqdır: "Bunun üçün klinikalarımızda və laboratoriyalarda rezidentlər üçün lazımi şərait yaradılmalı, onlara qayğı göstərilməlidir. Rezidentlər xəstələrin müayinəsi, diaqnostikası və müalicəsi proseslərində yaxından iştirak etməli, yeni protokollarla tanış olmalıdırlar. Kuratorlar, kafedra və şöbə müdirləri, eləcə də klinika rəhbərləri daima onlara diqqət göstərməlidirlər. Rezidentlərimizin xəstə azlığından şikayətlərini aradan qaldırmaq və onların kliniki bacarıqlarını daha da artirmaq üçün 2013-cü ildən başlayaraq Azərbaycan Tibb Universiteti ilə xarici ölkə universitetiəri arasında, xüsusən qardaş Türkiyə Respublikasının universitetləri arasında bağlanmış ikitərəfli müqavilələrə əsasən bizim rezidentlərimizin xaricdə rotasiyaları təşkil olunur ki, bu da sıxlığın aradan qaldırılmasına müəyyən köməklik edir. Qeyd etmək istəyirəm ki, 2018-ci ildə 83 nəfər Türkiyyə Respublikasında, 9 nəfər Almaniyada, 3 nəfər İran İslam Respublikasında və 1 nəfər İngiltərədə olmaqla 96 nəfər, 2019-cu ildə isə hal-hazıra qədər 75 nəfər Türkiyə Respublikasında, 14 nəfər Almaniyada, 2 nəfər İngiltərədə və 1 nəfər ABŞ-da olmaqla cəmi 92 nəfər 3-8 ay müddətində rotasiyalarda olmuş və bu iş uğurla davam etdirilir. Hal-hazırda Azərbaycan Tibb Universitetində rezidentlərin sayının artmasını və digər bazalardan da bizim klinikalra rotasiyaya gələn rezidentlərin sayının çox olmasını (Keçən il 324 nəfər, bu il indiyədək 163 nəfər ) nəzərə alsaq, bunun çox böyük əhəmiyyəti olduğunu görərik.

Artıq ikinci ildir ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təklifinə əsasən digər bazalardan olan rezidentlərin xarici ölkələrə rotasiya keçmələri də ATU- nun rezidentura və magistratura şöbəsi tərəfindən yerinə yetirilir. Təkçə bu il indiyədək başqa bazalardan 31 nəfər universitetimizin vasitəsilə xaricə rotasiyaya göndərilmişdir. Qeyd etmək istəyirəm ki, həm Azərbaycan Tibb Universitetinin, həm də digər bazalardan olan rezidentlərin xarici ölkələrdə rotasiyalarının təşkilində beynəlxalq əlaqələr şöbəsi və prorektorluq bizə yaxından köməklik göstərir."

Rezidentlərin yüksək səviyyəli həkim-mütəxəssis kimi yetişmələrində, onların daim öz biliklərinin artırılmasında kliniki fəaliyyətlə bərabər, elmi-tədqiqat işlərinin aparılmasının da vacibliyini önə çəkən natiq ATU- da hər ilin may ayında ulu öndər Heydər Əliyevin doğum gününə həsr edilmiş rezidentlərin elmi-təcrübi konfransının keçirildiyini dedi: "ATUREK adı altında keçirilən elmi-təcrübi konfransa bu il ilk dəfə magistrlərimiz da qatıldı. Bu il konfransa 28 ixtisas üzrə 98-i məqalə və 88-i tezis şəkilində olmaqla 186 elmi iş təqdim edilmişdir ki, onlardan da 21 iş 8 ixtisas üzrə digər bazalardan olan rezidentlərdən qəbul edilmişdir. Eyni zamanda, bu il ilk dəfə olaraq magistrlərdən də 30 elmi iş qəbul edilmiş, bu elmi işlərin hamısı toplum şəklində çap edilmişdir."

Hesabat məruzəsində rezidentura təhsilində dövri və yekun attestasiyaya hazırlıq və onların keçirilməsi qaydalarına da geniş yer ayıran məruzəçi qeyd etdi ki, hər il olduğu kimi, bu il də yekun attestasiyasının keçirilməsinə hazırlıqla bağlı komissiya üzvlərinin görüşü olub: "Görüşdə komissiya üzvləri attestasiyanın keşirilməsi qaydaları və rezidentlərin biliyinin qiymətləndirilməsinə olan tələbatlarla və təlimatlarla tanış edildilər. Eyni zamanda bu il yekun attestasiyasının keçirilməsi ilə əlaqədar yeniliklər də komissiya üzvlərinin nəzərinə çatdırıldı. Komissiya sədri, hörmətli rektorumuz yekun attestasiyasının mütəşəkkil və obyektiv keçirilməsində komissiya üzvləri ilə bərabər Azərbaycan Tibb Universitetinin rezidentura və magistratura şöbəsinə, İmtahan Mərkəzinə və Apelyasiya Komissiyasına yarana biləcək hər hansı appelyasiya şikayətlərinin operativ və obyektiv həll etmələrini tapşırdı".

R.Məmmədov bildirdi ki, bu il dövri və yekun attestasiyasının keçirilməsi ilə əlaqədar rektorun göstərişinə əsasən əksər ixtisaslara aid suallar yenilənmiş və buraxılış yekun attestasiya suallarının yenilənməsi ilə bərabər, həm də yeni tipli test sualları hazırlanaraq ümumi test suallarına əlavə edilmişdir: "Testlərin hazırlanması öncəsi treninqlər keçirilmiş və hər ixtisas üzrə ekspertlərə testlərin hazırlanması qaydaları izah edilmişdir. Bundan başqa hazırlanmış test suallarının məxfiliyinin təmin edilməsi və həmin testlərin vaxtında İmtahan Mərkəzinə çatdırılması onların nəzərinə çatdırılmışdır. Bu il dövri attestasiya olduğu kimi, yekun attestasiya üzrə də test sualları yenilənmiş və ilk dəfə olaraq yeni tipli suallar əlavə edilmişdir".

Əvvəlki illərə nisbətən bu il komissiya üzvlərinin öz işlərinə daha məsuliyyətlə yanaşdığını və bəzi kiçik gecikmələrə baxmayaraq imtahanların vaxtında başladığını və komissiya üzvləri tərəfindən lazımi səviyyədə aparıldığını diqqətə çatdıran məruzəçi dedi ki, imtahanların təşkilinə və keşirilməsinə klinika rəhbərləri də yaxından köməklik göstəriblər.

Ötən illərdə hər bir klinikamızda elmi-tədris mərkəzinin yaradıldığını, əksər rezidentlər üçün multi-media sistemi ilə təchiz olunmuş otaqların ayrıldığını, attestasiyaların virtual test mərkəzində kompyuter vasitəsilə aparıldığını, müxtəlif ixtisaslar üzrə tədris proqramlarının təkmilləşdirilməsi prosesinin davam etdirildiyini deyən şöbə müdiri yeni təkliflərini də şura üzvlərinin diqqətinə çatdırdı.



Məruzə ətrafında çıxış edən kafedra müdirləri Nuru Bayramov, Elmira Əliyeva, İsfəndiyar İsmayılov, Məlahət Sultanova, Gülnarə Əzizova və tələbə dekan Kamil Quliyev rezidentlərin gündəlik iş prinsipindən, onların əməliyyatlarda iştirakını təmin etməyin həlli yollarından söhbət açdılar. Bazalarda rezidentlərə qarşı yad münasibətin aradan qaldırılması və tədris proqramları barədə fikirlərini bölüşən natiqlər müəllimlərin bir qisminin rezidentlərə işinə vicdanla yanaşmamasını da dilə gətirdilər. Onlar rezidentlərlə ciddi məşğul olmağın əlverişli formalarının axtarılıb tapılması, test suallarının primitivliyi və eyni zamanda tədris proqramlarının həyata keçirilməsi istiqamətində öz təklif və rəylərini irəli sürdülər.

Məruzədə və çıxışlarda səslənən problemlərə münasibət bildirən professor G.Gəraybəyli rezidentura pilləsinə keçidin strateji cəhətdən son 8 il ərzində tibb təhsili sahəsində aparılan islahatların ən vacibi olduğunu vurğuladı: "Rezidentura təhsili universitetimizdə aparılan təhsil sisteminin ən vacib və ayrılmaz bir tərkib hissəsidir. Hər birimiz bu sahəyə böyük diqqət etməli və işimizə çox məsuliyyətlə yanaşmalıyıq. Rezidentura təhsili yalnız universitetimiz üçün deyil, bütövlükdə tibb təhsili üçün əhəmiyyətli bir sahədir".

Sözünə davam edən rektor bəzi bazalarda rezidentlərə yad münasibətin hələ də davam etdiyini, lakin buna baxmayaraq bir çox müsbət nümunələrin də olduğunu vurğulayaraq dedi ki, təhsil- tədris prosesinin düzgün qurulduğu kafedralarda rezidentlərə münasibət də qənaətbəxşdir: "Həqiqətən də son illər rezidentura təhsilində çox böyük irəliləyişlər olub. Həm rezidentlərə olan münasibət, proqramların təkmilləşməsi, həm onlara olan yanaşma və tələbatda, həm imtahanların formatında və eləcə də bir çox məsələlərdə təbii ki, müsbətə doğru işlər olub. Mən burada səslənən təkliflərlə razıyam. Artıq təcrübə də göstərir ki, istər kurator, istərsə də proqramların təkmilləşdirilməsi nöqteyi nəzərindən xeyli irəliləyişlər var. Ancaq yenə də bir çox həllini gözləyən problemlər hələ qalır. Rezidentura təhsili çox mürəkkəb bir təhsil növüdür. Səmimi etiraf edək ki, hələ bəzilərimiz rezidenturanı tam tərkibdə dərk etmir və yaxud da ölkəmizdə tibb təhsilinin ikipilləli olduğunu yetərincə anlamırıq. Hələ də tələbələrə seçdikləri ixtisas tələbilə yanaşmırıq. İndi artıq zaman dəyişib. Bizim təkcə mühazirələrlə, seminarlarla mütəxəssis hazırlamaq məqsədimiz yoxdur. Rezidentlərin özləri də bəzi kafedralara və şöbələrə yalnız vaxt itirmək üçün getdiklərini deyirlər. Təbii ki, belə rezidentlər haqlı narazılıq edirlər. Keçən il Apellyasiya şikayəti olmadığı halda, bu il birinci və sonrakı mərhələdə şikayətlər olub. Mənim buna əslində iradım yoxdur. Hesab edirəm ki, imtahan formatını dəyişməkdə düz yoldayıq. Mən burada səslənən təkliflərin bəzisi ilə razıyam, bəzisi ilə yox. Çünki hazırda dünyada və ölkəmizdə kəmiyyətdən keyfiyyət dəyişikliyinə keçilir. Qoy təhsilini 100 nəfər deyil, 50 nəfər bitirsin, amma savadlı mütəxəssis olsun. Burada səslənən fikirlər əlbəttə nəzərə alınır. İstər Təhsil Nazirliyi, istər İmtahan Komissiyası tərəfindən edilən təkliflərə baxılır və islahatların həyata keçirilməsi məqsədilə proqramlar hazırlanır. Növbəti ildən rezidenturaya qəbul qaydalarında dəyişiklik olmasını çox böyük səbirsizliklə gözləyirik. Bizim də bu barədə təkliflərimizin nəzərə alınacağına ümid edirəm".

Səhiyyə Nazirliyinin də rezidentura təhsilini daim diqqət mərkəzində saxladığını deyən professor G.Gəraybəyli bu istiqamətdə ciddi iş aparıldığını və yeni islahatların gözlənildiyini həmçinin, rezidentura hazırlığında ATU-nun rolunun daha da artırılmasının nəzərdə tutulduğunu söylədi.

Rotasiyalara diqqət yetirməyin vacibliyini vurğulayan rektor rezidentlərdən şikayətlər gəldiyini və bu şikayətlərin bir qisminin kuratorların təyin edilməsi ilə bağlı olduğunu dedi. Hər bir rezidentin elektron bazasının olmasını da zəruri sayan universitetin rəhbəri bildirdi ki, hər bir elan və yaxud imtahanda edilən dəyişiklik haqqında olan məlumat rezidentin elektron ünvanına çatdırılmalıdır.

Çapa tövsiyə edilən əlyazmalar barədə təklifləri təsdiqləyən Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini sona çatdırdı.

**Mənsur ƏLƏKBƏRLİ**

# "Çinar" rəqs ansamblının üzvləri təltif olundu

**"Həkimlik sənətini seçən şəxs təkcə tibb elmini öyrənməklə kifayətlənməməlidir. Pasiyentə daha düzgün yanaşıb müalicə etməsi üçün həkimin dərin dünyagörüşü olmalı və hərtərəfli inkişaf etməlidir". Bu fikirləri Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli bu günlərdə 60 illik yubileyi qeyd edilən "Çinar" rəqs ansamblının üzvləri ilə görüşdə səsləndirib.**



Professor G.Gəraybəyli qeyd edib ki, zəngin şəxsiyyət kimi formalaşan həkimin fəaliyyəti cəmiyyətdəki rolunun və nüfuzunun yüksəlməsinə də təsir edir. Bu baxımdan, Azərbaycan Tibb Universitetinin tələbələrindən ibarət "Çinar" rəqs ansamblının fəaliyyəti respublika səviyyəsində təqdir olunur. Rektor bildirib ki, ansamblın yaradıcısı, "Azərbaycan rəqs sənətinin şahzadəsi" adlandırılan xalq artisti Əminə Dilbazinin ənənəsi bu gün də şərəflə davam etdirilir. Rektor bu ənənənin davam etdirilməsi üçün ATU-nu bitirən hər bir ansambl üzvünün öz əvəzinə yeni tələbəni qrupa gətirməsinin vacib olduğunu bildirib.

Sözünə davam edən rektor noyabrın 6-da Dövlət Akademik Filarmoniyasında "Çinar" rəqs ansamblının 60 illik yubileyinə həsr olunmuş təntənəli tədbirin təşkilində zəhməti olan hər kəsə təşəkkürünü bildirib.

Sonra Təhsil naziri Ceyhun Bayramovun "Çinar" rəqs ansamblının kollektivinə təbrik məktubu oxunub. Məktubda qeyd edilib ki, qızlardan ibarət "Çinar" rəqs ansamblı Azərbaycan mədəniyyətini layiqincə təmsil edib, ölkəmizdə incəsənətin inkişafı ilə yanaşı, həm də tələbə gənclərin estetik zövqünün formalaşmasına töhfə verib.

Tədbirin sonunda professor G.Gəraybəyli ansamblın yubiley tədbirinin yüksək səviyyədə təşkilinə görə ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımovu fəxri fərmanla təltif edib. "Çinar" rəqs ansamblının bədii rəhbəri Nisaxanım Qasımova isə ATU- nun və Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin fəxri fərmanları ilə təltif olunub. Bundan başqa, ansambl üzvlərinin hər birinə fəxri fərman və pul mükafatı da təqdim edilib.

Məlumat üçün qeyd edək ki, 1959-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunda yaradılan "Çinar" rəqs ansamblı qısa müddətdə tamaşaçıların rəğbətini qazanıb. Noyabrın 6-da Dövlət Akademik Filarmoniyasında Azərbaycan Tibb Universitetinin "Çinar" rəqs ansamblının 60 illik yubileyinə həsr olunmuş təntənəli tədbir keçirilib. Tədbirdə Səhiyyə naziri Oqtay Şirəliyev, Təhsil naziri Ceyhun Bayramov, Mədəniyyət və turizm naziri Əbülfəz Qarayev və digər rəsmi qonaqlar iştirak ediblər.

Görüşdə ATU-nun nəzdindəki "Şəfa" xalq çalğı alətləri ansamblının üzvləri də iştirak edirdi.

# ATU-nun professoru Türkiyədə beynəlxalq konfransda iştirak edib

**◆ Noyabrın 15-dən 17-dək Türkiyənin Antalya şəhərində 6-cı Beynəlxalq Dodaq və Damaq yarıqları konfransı keçirilib.**




ATU-nun Tədris Cərrahiyyə Klinikasının plastik və konstruktiv cərrahı, professor Vaqif Qələndər həmin konfransa məruzəçi qismində dəvət olunub.

Qeyd olunan bu beynəlxalq tədbirdə anadangəlmə dodaq və damaq qüsurlu uşaqlarda müasir yeni müalicə protokolları müzakirə olunub.

Konfransda məruzə ilə çıxış edən tanınmış cərrah V. Qələndər tədbir iştirakçıları ilə öz təcrübəsini bölüşüb. O, bu cür qüsurlarla doğulmuş pasiyentlər üzərində apardığı bərpa əməliyyatları barədə məlumat verib. Müasir cərrahiyyədə belə əməliyyatların tətbiqi və nəticələri haqqında ətraflı söhbət açıb.

# Əməkdaşlarımız Beynəlxalq Konqresdə

**◆ Bu günlərdə Şimali Kiprin Famagusta şəhərində Tibbi və Aromatik bitkilər üzrə 6-cı Beynəlxalq Konqresi (WOCMAP VI) keçirilib.**



Konqresdə Azərbaycan Tibb Universitetinin Ümumi və toksikoloji kimya kafedrasının müdiri, professor Eldar Qarayev və assistent Kəmalə Bədəlova təmsil edib.

Konfransın ilk günündə assistent K.Bədəlova "Tərkibində mövcud olan metallar üçün qida əlavələrinin keyfiyyətinə nəzarət", ikinci günü isə professor E.Qarayev "Azərbaycan Florasından olan Cephalaria və Scabiosa (Dipsacaceae) cinsi bitkilərinin bioloji aktiv birləşmələri" mövzularında məruzə ilə çıxış ediblər.

Noyabrın 16-da professor Eldar Qarayev konfransın plenar iclasına sədrlik edib. Noyabrın 13 və 15-də yerli və əcnəbi alimlərin çoxsaylı poster təqdimatları nümayiş etdirilib.

Konqresə dünyanın 44 ölkəsindən (Türkiyə, İspaniya, Almaniya, Fransa, Kanada, Braziliya, Argentina, Portuqaliya, ABŞ, İngiltərə, Litva, Bosniya-Hersoqovina, Sloveniya, Cənubi Afrika, Hindistan, Qazaxstan, Tailand və s.) qatılmış 240 nümayəndə - aparıcı elm mərkəzlərindən və ali təhsil ocaqlarından alimlər öz elmi-tədqiqat işlərinin nəticələri haqqında maraqlı məruzələr ilə çıxış ediblər.

WOCMAP silsilə konqresləri 1992-ci ildən hər beş ildən bir fərqli qitədə təşkil olunur. Bu Dərman və Aromatik Bitkilər üzrə Beynəlxalq Şuranın (ICMAP) rəsmi konqresidir. Konqres Famagusta şəhərində yerləşən Kaya Artemis Hotelində olduqca zəngin proqram və yüksək təşkilatçılıqla keçirilib.

Konqres zamanı ATU-nun nümayəndələri ilə müxtəlif olkələrin alimləri, xarici ali məktəblərin təmsilçiləri arasında səmərəli görüşlər keçirilib, gələcək əməkdaşlıq barəsində danışıqlar aparılıb.

# "Miqrasiya könüllüləri" ATU-nun əcnəbi tələbələrinə kömək edəcək

## ATU ilə "Miqrasiya könüllüləri" İctimai Birliyi arasında əməkdaşlıq memorandumu imzalanıb

**Universitetimizdə təhsil alan 2 mindən çox əcnəbi tələbəyə ölkəmizdə müvəqqəti yaşama icazəsinin verilməsi üçün sənədləşmə işlərində Dövlət Miqrasiya Xidmətinin miqrasiya könüllüləri yardım edəcəklər. Bu, Azərbaycan Dövlət Miqrasiya Xidmətinin "Miqrasiya könüllüləri" İctimai Birliyi və ATU arasında imzalanan əməkdaşlığa dair memorandum çərçivəsində mümkün olacaq.**



Memorandumun imzalanma mərasimindən öncə keçirilən görüşdə ATU-nun rektoru, professor Gəray Gəraybəyli son vaxtlar Azərbaycanda miqrasiya xidmətinin fəaliyyətindəki islahatlar və dəyişiklikləri müsbət qiymətləndirib. Qeyd edib ki, Azərbaycan Tibb Universitetinin də beynəlxalq miqyasda tanınması, reytinqinin yüksəldilməsi, həm də xarici ölkələrdən tələbələrin cəlb olunması istiqamətində çoxsaylı tədbirlər həyata keçirilir: "Qürurla qeyd edə bilərəm ki, ATU sayca ən çox xarici tələbəsi olan universitetdir. Ölkə üzrə ali məktəblərdə 7000-ə yaxın xarici tələbə varsa, bunların 2000-dən çoxu ATU-da təhsil alır".



Professor G.Gəraybəyli vurğulayıb ki, universitetimizdə əcnəbi tələbələrin qəbul prosesinin müasir standartlara uyğun şəkildə elektron formada Skype intervü vasitəsilə aparılır və əcnəbilər artıq 1 sutka ərzində ali məktəbə qəbul olub-olmadıqları barədə cavab alırlar. Əcnəbi tələbələrin ATU-da təhsil üçün ölkəmizə gəlməsi, təhsil icazəsi alması və digər məsələlərin məhz miqrasiya xidmətinin yardımı ilə baş tutduğnu deyən rektor bu məsələdə yardımçı olan xidmət əməkdaşları və könüllülərinə təşəkkür edərək bu sahədə əməkdaşlığı gücləndirməyə ehtiyac olduğunu bildirib.

Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov qeyd edib ki, Azərbaycanda hər sahədə gedən inkişaf xarici vətəndaşların ölkəmizə axınına səbəb olub. Əcnəbi vətəndaşlar həm turizm, həm biznes, həm də təhsil üçün Azərbaycanı seçirlər: "Bizim xidmətin də əsas istiqamətindən biri xarici vətəndaşların ölkədə yaşamasını tənzimləməkdir. Əsas yanaşmamız ondan ibarətdir ki, əcnəbilər sənədləşmə ilə bağlı yükü maksimum az hiss etsinlər".

V.Hüseynov ATU-nun xarici tələbə sayına görə birinci yerdə olmasının səbəbini bu ali məktəbdə yüksək səviyyəli təhsil və düzgün qurulmuş təşviqat işi ilə əlaqələndirib. Xidmət rəisi təşkilatın pilot layihə kimi təqdim etdiyi "Miqrasiya könüllüləri"nin ilk dəfə məhz ATU ilə birgə işlədiyini və artıq müsbət nəticələrin əldə edildiyini bildirib.

Sonra Dövlət Miqrasiya Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Kələntərov "Miqrasiya könüllüləri" İctimai Birliyi haqqında təqdimatla çıxış edib. Qeyd olunub ki, xidmətin nəzdində artıq 2000-dən çox qeydiyyatdan keçmiş miqrasiya könüllüsü var. Bu layihənin əsas məqsədi gənclərə yeni biliklər və təcrübə əldə etmək, şəxsi inkişafı yeni imkanlarla təmin etməkdir. Həmçinin, könüllüləri xidmətin fəaliyyətinə cəlb etməklə, onları bu sahə ilə daha yaxından tanış etmək imkanı yaratmaqdır.

Görüşün sonunda ATU-nun rektoru, professor Gəray Gəraybəyli və "Miqrasiya könüllüləri" İctimai Birliyinin sədri Emil Gülmuradov arasında birgə əməkdaşlığa dair memorandum imzalanıb.

Qeyd edək ki, Dövlət Miqrasiya Xidmətinin "Miqrasiya könüllüləri" Azərbaycan Tibb Universitetində oxuyan əcnəbi tələbələrin miqrasiya sahəsində sənədləşmə işlərinə kömək göstəriblər. Memorandum çərçivəsində bundan sonra "Miqrasiya könüllüləri" bu ali təhsil ocağında təhsil alan 2000–ə yaxın əcnəbi tələbəyə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşama icazəsi verilməsi üçün sənədləşmə prosesində yaxından iştirak edəcək, miqrasiya sahəsi üzrə geniş informasiya verəcək, onları maraqlandıran sualları cavablandıracaq, təklif və müraciətləri ümumiləşdirərək aidiyyəti üzrə göndərəcəklər.

**ATU-nun mətbuat xidməti**

# ATU-da dosent Nadir Adilovla tələbələrin görüşü olub

**ATU-nun Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə "Beynəlxalq Tələbə Günü" münasibətilə Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə heyətinin sədr müavini, hüquq üzrə fəlsəfə doktoru, dosent Nadir Adilovla tələbələrin səmimi görüşü keçirilib.**



N.Adilov müəllifi olduğu kitablar barədə də məlumat verib. Yaradıcılığında əsasən nələrə önəm verdiyi barədə danışıb və tələbələri maraqlandıran sualları cavablandırıb.

Qeyd edək ki, Nadir Adilov "Gəncsən? Başla!" və "Məqsədlisən?" adlı işgüzar və fərdi inkişaf kitablarının müəllifidir. Hər iki kitab tələbə gənclər arasında çox qısa bir zamanda populyarlıq qazanıb. Kitablarda gənclərin işgüzar inkişafına dəstək məqsədi ilə real və praktiki nümunələrə geniş yer verilib.

Görüşdə Klinikal Medical şirkətinin rəhbəri Əli Bayramov, İSİM-in səhiyyə siyasəti və planlaşdırma şöbəsinin mütəxəssisi Günay Quluzadə və Bakı şəhəri üzrə bir çox təhsil müəssisələrinin TGT sədrləri iştirak edib.

Görüş çərçivəsində tələbələr üçün maarifləndirici seminar və tədbirdə iştirak edən ilk 200 nəfər müəllifin "Məqsədlisən?" adlı imzalı kitabı hədiyyə olunub.



Görüşdə universitetin müalicə və tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev gənclər üçün belə motivasiya tipli tədbirlərin keçirilməsinin vacibliyindən söhbət açıb, gənc nəslin kitaba olan marağından danışıb.

"Təəssüf ki, müasir dövrün gəncləri kitaba o qədər də həvəs göstərmirlər. Amma onları qınamaq da olmur, çünki indi zamanın tələbi başqadır. Bildiyiniz kimi, universitetin tədris sistemində köklü dəyişikliklər gedir, bunların nəticəsi olaraq, inanırıq ki, kitaba qayıdış olacaq. Çünki biz milli-mənəvi dəyərlərimizi daim qoruyub saxlamalıyıq. Azərbaycançılıq ideologiyasını uca tutmalıyıq" - deyən S. Əliyev tələbələrə dərslərində uğurlar arzulayıb və belə görüşlərin davamlı olmasını diləyib.

Görüşə görə ATU-nun rəhbərliyinə və TGT-nin sədri Rauf Vəliyevə təşəkkür edən dosent Nadir Adilov bildirib ki, o ilk dəfədir Tibb Universitetində olur: "Tibb sahəsi üzrə təhsil alan tələbələrlə görüşmək mənim üçün maraqlıdır. Sizinlə təmasda olmaqdan şad oldum. İnanıram ki, bu görüşdən həm mən, həm də tələbələr nəsə əldə edəcəklər".

# Aralıq sorğuları imtahanqabağı hazırlığın əsas göstəricilərindən biridir

**Noyabrın 20-də ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev İmtahan Mərkəzində keçirilən aralıq qiymətləndirmənin gedişatı ilə tanış olub.**



İmtahan Mərkəzinin müdiri Ülkər Cəfərova, imtahana nəzarət qrupunun sədri Zümrüd Abaszadə və Əczaçılıq fakültəsinin dekanı Kamandar Yaqublu da aralıq qiymətləndirmənin təşkili, aparılması ilə bağlı fikirlərini bölüşüblər.

Qeyd edilib ki, hansı fənlərin kreditləri, dərs saatları azdırsa həmin fənlərin aralıq qiymətləndirilməsi tədris ilinin 8-ci həftəsindən başlayır. Keçən il yalnız I kursları əhatə etdiyinə görə aralıq qiymətləndirmə 10-cu həftədən başlayırdı və tələbə hər gün kollokvium sorğusunda iştirak edirdi. Keçən tədris ilindən fərqli olaraq bu il bütün fakültələrin II kurslarında da kollokvium sorğuları aparılır və imkan daxilində elə formada təşkil edilir ki, dərs prosesinə mane olmasın.

Xatırladaq ki, tələbələr bir semester ərzində 3 kollokvium sorğusunun üçünü də kafedrada cavablandırırdılar. İndi birinci və üçüncü kollokvium sorğuları kafedrada, ikinci sorğu isə İmtahan Mərkəzində aparılır. Aralıq sorğuda proqrama uyğun keçilən mövzulara dair sualların tərtib edildiyini və tələbələrin həmin sualları cavablandırdığını deyən prorektor bildirib ki, qalan suallar 3-cü kollokvium sorğusu zamanı müəllimlər tərəfindən aparılır: "Aralıq qiymətləndirmənin üstünlüyü ondadır ki, nəticələr kompüter vasitəsilə tələbənin özünə məlum olur. Bu sorğu ilk növbədə imtahanqabağı hazırlığın, səfərbərliyin əsas göstəricilərindən biridir. Məndə olan məlumata görə, bəzi tələbələr, xüsusilə xarici tələbələr telefondan və digər köməkçi vasitələrdən istifadə etməyə çalışırlar. Amma nəzarətçi qrup belə cəhdlərin qarşısını vaxtında alaraq araşdırır, universitet rəhbərliyinə məlumat verir. Nəticədə aralıq qiymətləndirmənin tələblərini pozan tələbələrin cavabları sıfırlanır".



Aralıq sorğuları bitdikdən sonra tələbələrin qiymətləri artıq elektron jurnala köçürülür. Tələbənin özü, qrup nümayəndəsi və fakültə rəhbərliyi həmin qiymətləri yoxlaya bilirlər.

Qeyd edək ki, noyabrın 4-dən başlayan aralıq sorğuları noyabrın 29-da yekunlaşıb.

# Təbriz Tibb Universiteti ilə əlaqələrimiz genişlənir

## ATU-nun prorektoru İranda səfərdə olub

**Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov İran İslam Respublikasında səfərdə olub. Səfər zamanı R.Bəylərov Təbriz Tibb Universitetinin qonağı olub, bu ali məktəbin təhsil-tədris prosesi və tələbələr üçün yaradılan şəraitlə yaxından tanış olub.**



R.Bəylərov Təbriz Tibb Universitetinin rəhbərliyi ilə görüş keçirib. Görüş zamanı qeyd olunub ki, Təbriz Tibb Universitetində dünyanın 10-dan çox ölkəsindən, o cümlədən Azərbaycandan gələn tələbələr təhsil alırlar. Bildirilib ki, Təbriz Tibb Universiteti ATU ilə mövcud əməkdaşlığın inkişaf etdirilməsində çox maraqlıdır.

Görüş zamanı hər iki ali məktəb arasında qarşılıqlı əməkdaşlığın yeni istiqamətləri müzakirə olunub və birgə elmi araşdırmaların aparılmasına dair ilkin razılıq əldə edilib. Həmçinin, Tehran Tibb Universitetinin tərkibində olan "Evidence Medicine" bazası ilə birlikdə layihələrin başlanılması təklifi nəzərdən keçirilib.

Qeyd edək ki, ATU və Təbriz Tibb Universiteti arasında imzalanan memorandumun şərtlərinə əsasən, azərbaycanlı rezidentlərin İrandakı ali məktəblərin fərqli bazalarına göndərilməsi nəzərdə tutulub.

Məlumat üçün bildirək ki, bundan əvvəl də universitetimizin nümayəndə heyətinin İran İslam Respublikasına işgüzar səfəri baş tutmuşdu.

# "Kiçik doğulmaq böyük insan olmağa əngəl deyil"

## Tədris Cərrahiyyə Klinikasında vaxtından əvvəl doğulmuş uşaqların günü qeyd edilib




**Noyabrın 16-da ATU-nun Tədris Cərrahiyyə Klinikasında "Kiçik doğulmaq böyük insan olmağa əngəl deyil" adlı tədbir keçirilib. 17 noyabr - Dünyada vaxtından əvvəl doğulmuş uşaqlar gününə həsr olunmuş tədbirdə klinikanın direktoru, professor Surxay Hadıyev bu günün yaranmasın tarixindən və zəruriliyindən söhbət açıb. Bildirib ki, həmin gün 2009-cu ildə Yeni Doğulmuş Uşaqlara Nəzarət üzrə Avropa fondunun təşəbbüsü ilə təsis edilib: "Bu günün qeyd olunmasının məqsədi vaxtından əvvəl doğumun təhlükəsi və fəsadları, profilaktikası və hamiləliyin tam vaxtında başa çatdırılması barədə ictimaiyyəti məlumatlandırmaqdan ibarətdir. Klinikamızda neonatologiya çox önəmli şöbələrdən biridir, yenidoğulmuşların həyatda qalması çox önəmlidir. Bu baxımdan çox qürurluyam, mənim üçün çox sevindirici haldır ki, hər gün klinikamızın neonatologiya şöbəsinin əməkdaşlarının necə həvəslə öz işinə yanaşdıqlarının şahidi oluram".**

Klinikasında 120 professor, 240-a yaxın tibb üzrə fəlsəfə doktoru və peşəkarlardan ibarət güclü komanda çalışır. Bu komanda üzvləri bütün xəstələrin, xüsusilə də uşaqların sağlamlığının qorunması üçün əllərindən gələni əsirgəmir.

Səhiyyə Nazirliyinin neonatologiya üzrə kuratoru Nərgiz Şərifova bu cür tədbirlərin keçirilməsinin vacibliyindən danışıb, nazirlik tərəfindən neonatologiyanın inkişafı istiqamətində görülən işlərin əhəmiyyətini vurğulayıb.

Klinikanın neonatologiya şöbəsinin müdiri Aygün Rüstəmxanlı bu tədbiri vaxtından əvvəl doğulmuş uşaqların həyatda tutulması və xüsusi diqqətlə müalicə olunması üçün bütün neonatoloqlara çağırış kimi qiymətləndirib.

A.Rüstəmxanlı Azərbaycanda diri doğulma meyarları haqqında da məlumat verib. Qeyd edib ki, hazırda 22 həftə üzərində doğulan və həyat elementi, 500 qramdan çox çəkisi olan uşaq diri doğulmuş sayılır: "Artıq dünya 22-23 həftə üzərində doğulan uşaqların yaşaması üzərində çaba göstərir. Bununla bağlı ölkəmizdə də çox tədbirlər görülüb. Neonatoloqların təlimatlandırılması, müxtəlif konfransların, tədbirlərin, treninqlərin keçirilməsi bizim işimizə xeyli töhfə verib".

Daha sonra vaxtından əvvəl doğulmuş körpələrin valideynləri uşaqların doğulduğu gün keçirdikləri hisslərdən, həyəcanlı anların-



Respublikanın baş neonatoloqu, professor Rüstəm Hüseynov Azərbaycanda vaxtından əvvəl doğulmuş uşaqlara dövlət tərəfindən yüksək səviyyədə diqqət və qayğının göstərildiyini bildirib. Neonatologiya sahəsində ciddi irəliləyişlərin olduğunu qeyd edən R.Hüseynov bildirib ki, Səhiyyə Nazirliyi ölkəmizdəki xəstəxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi üçün kifayət qədər yardım edir. Tibb müəssisələrmizin müasir tələblərə uyğunlaşdırılması istiqamətində xeyli işlər görülüb, kadr potensialı artırılıb.

TCK-nın baş həkimi, professor Ramiz Poluxov klinikanın fəaliyyətindən, burada xəstələrin müayinə və müalicəsi üçün yaradılmış şəraitdən söz açıb. Qeyd edib ki, hazırda Azərbaycanın ən böyük və müasir klinikalarından biri sayılan Tədris Cərrahiyyə

dan söhbət açıblar.

Tədbirdə vaxtından qabaq doğulmuş uşaqlara ATU TCK-nın neonatologiya şöbəsi tərəfindən hədiyyələr təqdim olunub.

Hər il planetdə təxminən 15 milyon uşaq vaxtından əvvəl doğulur. Təcrübə göstərir ki, vaxtından əvvəl doğulanların xeyli hissəsi nəinki sağlam və gümrah, hətta görkəmli şəxsiyyətlərə çevrilirlər.

**ATU-nun mətbuat xidməti**

# Professor Əzəm Ağayevin 75 illik yubileyinə həsr olunmuş anım tədbiri keçirilib

**Noyabrın 21-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında t.e.d, istedadlı alim, professor Əzəm Ağayevin 75 illik yubileyinə həsr olunmuş anım tədbiri keçirilib.**

Tədbiri giriş sözü ilə açan ATU-nun müalicə və tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev mərhum alimin keçdiyi həyat yolundan və şərəfli əmək fəaliyyətindən danışıb. Əzəm Ağayevin gözəl insan və bacarıqlı işçi olduğunu deyən S. Əliyev onun aspirantlıqdan assistent, dekan müavini, dekan və prorektorluğa qədər çətin bir yol keçdiyini,





pillə-pillə ucaldığını qeyd edib: “Əzəm Təyyar oğlu Ağayev çox bilikli, məsuliyyətli, çalışqan insan kimi yaddaşlara həkk olunub. O, 1969-cu ildə bizim təhsil ocağını fərqlənmə diplomu ilə bitirdikdən sonra Sosial gigiyena və səhiyyənin təşkili kafedrasına baş laborant qəbul edilib. 1972-ci ildə dissertasiya işini müvəffəqiyyətlə müdafiə edib və həmin ildən adı çəkilən kafedrada assistent, 1976-cı ildə isə baş müəllim vəzifəsində çalışan Əzəm Ağayev 1985-ci ildə institutun tədris işləri üzrə prorektoru təyin olunub. 1989-cu ildə Sosial gigiyena və səhiyyənin təşkili kafedrasının müdiri vəzifəsində işləyib. O, kafedraya rəhbərlik etdiyi dövrdə özünəməxsus sadəliyi və əməksevərliyi ilə kafedranın bütün əməkdaşlarının dərin hörmətini qazanıb. Onun hansı vəzifələrdə çalışmasından asılı olmayaraq, özünü son dərəcə işgüzar, məsuliyyətli və bacarıqlı təşkilatçı kimi göstərib”.

Tədbirdə İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, professor Rafiq Çobanov, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, professor Vaqif Şadlinski, Epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev, Terapevtik və pediatrik propedevtika kafedrasının professoru Yaqub Qurbanov çıxış edərək, tanınmış alim haqqında öz həzin, kövrək xatirələrini bölüşüblər.

Anım mərasimində Əzəm Ağayevin həyat və yaradıcılığına həsr olunmuş video çarx nümayiş olunub.

Tədbirin sonunda mərhum alimin oğlu, atasının yolunu layiqincə davam etdirən universitetin İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayev tədbiri təşkil edənlərə və eləcə də tədbirdə iştirak edən hər kəsə təşəkkürünü bildirib.

# Çin Xalq Respublikasının Gansu Əyalətinin təhsil şöbəsinin nümayəndə heyəti ATU-nun qonağı olub

**Çin Xalq Respublikasının Gansu Əyalətinin təhsil şöbəsinin nümayəndə heyəti ATU-nun qonağı olub. Universitet rəhbərliyi ilə görüş zamanı Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov qonaqlara universitet, universitetin klinikaları, tədris sistemi haqqında geniş məlumat verib.**

Prorektor R.Bəylərov bildirib ki, ATU-nun Çin ilə mövcud əlaqələri günü-gündən möhkəmlənməkdədir.

Şinyan Universiteti ilə ortaq işlərimiz var, Gansu Tibb Universitetində olmuşuq, orada səmərəli görüşlərimiz olub. Bunlarla yanaşı, həçinin Çinin Elmi Araşdırmalar Akademiyası ilə də bir sıra sahələr üzrə çalışırıq. Bu il ATU-da Şərq təbabətinin öyrənilməsinə dair 2 həftəlik kurslar da keçirilib. İnanırıq ki, bu işlərimiz davamlı olacaq” R.Bəylərov qeyd etdi ki, Azərbaycan və Çin arasında dövlət səviyyəsində yüksək əlaqələr, tibb təhsili sahəsində də münasibətlərin genişlənməsinə şərait yaradır.

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev ATU-nun beynəlxalq əlaqələri, xarici ölkələrlə olan qarşılıqlı memorandumları, ATU-da təhsil alan əcnəbi tələbələr haqqında məlumat verib. Bildirib ki, ATU-da 35 xarici ölkədən təhsil alan tələbələr arasında Çindən cəmi 1 tələbə var və bu sayı artırmaq üçün potensial mövcuddur.

Gansu Əyalətinin təhsil şöbəsinin müdiri Wang Haiyan universitetlər arasında münasibətlərin yaradılmasının vacib olduğunu bildirib: “Burda olduğum müddətdə ATU haqqında, tədris sistemi, klinikalarınız haqqında məlumat aldım. İnanıram ki bu görüş əlaqələrimizin genişlənməsinə,



qarşılıqlı tələbə mübadiləsini təşkil etməyə yardımcı olacaq. Çünki inkişaf səviyyəsindən asılı olmayaraq, hər iki tərəfin nələrisə öyrənməsinə, təcrübəsini paylaşmasına ehtiyac var”.

Qeyd edək ki, görüşdə ATU-nun beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, əczaçılıq texnologiyası və idaərçiliyi kafedrasının ümdir, professor Məhbubə Vəliyeva, terapevtik və pediatrik propedevtika kafedrasının professoru Rafiq Təhməzov, Gansu Əyalətinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Zhang Hong və Kəmər və Elm və Texnologiya Yol Birliyinin Baş katib müavini, PHD Li Renying iştirak edirdilər.

# ATU-nun beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları təlimdə iştirak ediblər

◆ **Noyabrın 22-23-də Azərbaycan Tibb Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları “Səmərəli və dayanıqlı tərəfdaşlıq vasitəsilə ali təhsil bacarıqlarının artırılması” mövzusunda təlimdə iştirak ediblər.**

ATU-nun beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov və şöbənin mübadilə proqramları üzrə koordinatoru assistent Aygün Bayramova ABŞ-ın Azərbaycandakı Səfirliyi və Xəzər Universitetinin birgə təşkil etdiyi “Səmərəli və dayanıqlı tərəfdaşlıq vasitəsilə ali təhsil bacarıqlarının artırılması” mövzusunda iki günlük təlimdə iştirak ediblər.

Təlim ali təhsil müəssisələrinin beynəlmiləlləşməsi kontekstində idarəetmə və təhsil mütəxəssisləri üçün nəzərdə tutulub. Tədbir Buzovna qəsəbəsində yerləşən Xəzər İnci Hotelində keçirilib.

Təlim ABŞ-ın Kaliforniya ştatının Middlebury Beynəlxalq Araşdırmalar İnstitutunun dosenti, beynəlxalq təhsil sahəsində 20 ildən çox təcrübəsi olan Dr. David Wick tərəfindən aparılıb. Təlimin sonunda iştirakçılara müvafiq sertifikatlar təqdim olunub.



# “Allerqologiya və kliniki immunologiyanın müasir aspektləri” mövzusunda elmi-praktik konfrans

**Noyabrın 23-də Hilton otelində Azərbaycan Tibb Universitetinin təşkilatçılığı ilə “Allerqologiya və kliniki immunologiyanın müasir aspektləri” mövzusunda elmi-praktik konfrans keçirilib.**



Konfransda açılış nitqi ilə çıxış edən ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov müzakirəyə çıxarılan mövzunun aktuallığına toxunaraq bütün dünyada allergik xəstəliklərin artdığını deyib. Bildirib ki, əgər XIX və XX əsrlərdə əsas problem allergik xəstəliklərin diaqnostikası ilə bağlı idisə, XXI əsrdə həmin xəstəliklərin müalicəsinə daha çox diqqət yetirilir. Bu baxımdan xüsusi əhəmiyyət daşıyan konfransın işinə uğurlar arzulayan prorektor tədbir iştirakçılarına, xüsusən də qardaş Türkiyə Cümhuriyyətindən təşrif buyuran qonaqlara universitetin rektoru, professor Gəray Gəraybəylinin salamlarını da çatdırıb.

Hələ özünün tələbəlik illərində məşhur allerqoloqların, im-



munoloqların, o cümlədən 15-ə yaxın akademikin iştirakı ilə belə bir konfransın keçirildiyini xatırladan universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev bu ənənənin indi də davam etdirilməsindən məmnunluğunu dilə gətirib. İmmun sistemininin orqanizmin vacib və çox mürəkkəb sistemlərindən biri olduğunu, bu sahənin Azərbaycan Tibb Universitetində geniş tədqiq edildiyini söyləyən professor S.Əliyev bugünkü konfransı aparılan uğurlu araşdırmaların nəticəsi kimi dəyərləndirib.

Azərbaycan Allerqoloq, İmmunoloq və İmmunoreabilitoloqlar Elmi Cəmiyyətinin sədri, professor Amaliya Əyyubova çıxışında allerqologiyanın tibbin bütün sahələrini əhatə etdiyini, ona görə də bügünkü konfransa təkcə allerqoloqların deyil, digər mütəxəssislərin də qatılmasının təbii olduğunu vurğulayıb. Qeyd edib ki, allerqoloqların başlıca məqsədi əhalini maarifləndirmək, allergik xəstəliklərin effektli müalicəsinə nail olmaqdır: “Respublikamızda bu istiqamətdə ciddi işlər aparılır, gələcəkdə də beynəlxalq səviyyəli konqres və konfransların keçirilməsi nəzərdə tutulub”.

Türk dünyasının fəxri pediatrı, akademik Adilə Namazova da konfransda çıxış edərək xalqımızın sağlamlığı keşiyində dayanan həkimlərimizin fəaliyyətinə yüksək qiymət verib, konfransın işinə uğurlar diləyərək ən xoş arzularını həmkarları ilə bölüşüb.

Açılış tədbirinin sonunda konfransın əsas ağırlığını öz üzərinə götürən ATU-nun Allerqologiya və immunologiya kafedrasının müdiri, professor Lalə Allahverdiyeva göstərdikləri dəstəyə görə Səhiyyə Nazirliyinə, ATU-nun rəhbərliyinə, təşkilat komitəsinin üzvlərinə, eləcə də vaxt ayırıb konfransın işində iştirak edən professor-müəllim heyətinə təşəkkürünü bildirib.

Bundan sonra elmi məruzələrin təqdimatına başlanılıb.

Allerqologiya və kliniki immunologiyanın praktiki səhiyyədə ən çox rast gələnən problemləri, uşaqlar arasında ən çox rast gəlinən allerqopatologiyalar müzakirə olunub.

ATU-nun Allerqologiya və immunologiya kafedrasının müdiri, professor Lalə Allahverdiyeva, dosenti Aynur Ağayeva, assistentləri İlqar Mustafayev və Ülkər Hümbətova, dissertantı Həmidə Səlimzadə, İstanbul Universitetinin Tip fakültəsinin professoru Ferhan Özşeker, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti Tahirə Pənahova, assistenti Püstə Orucova, dissertantları Aytən Cəfərova və Günay Cəbrayılova və Türkiyənin Köç Universitetinin doktoru Emek Kocatürk allerqologiya və kliniki immunologiyanın aktul problemlərinə dair maraqlı məruzələrlə çıxış ediblər.

Geniş diskussiya şəraitində keçən konfransın gedişində məruzəçilərə ünvanlanan suallar da cavablandırılıb.

**ATU-nun mətbuat xidməti**

# GÖRKƏMLİ ALİM, PEŞƏKAR KLİNİSİST

**Əlişir Veys oğlu Musayev 4 dekabr 1949-cu ildə Gürcüstan Respublikasının Dmanisi rayonunun Qızıl Kilsə kəndində müəllim ailəsində anadan olmuşdur.**

Kəndlərindəki orta məktəbi bitirdikdən sonra 1966-cı ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. İnstitutu 1972-ci ildə müvəffəqiyyətlə bitirdikdən sonra iki il Sovet Ordusu sıralarında alay tibb məntəqəsinin rəisi vəzifəsində çalışmışdır.1975-cü ildə ordudan tərxis olunduqdan sonra Moskva şəhərində Mərkəzi Elmi-Tədqiqat Kurortologiya və Fizioterapiya İnstitutunda "Sinir xəstəlikləri" ixtisası üzrə məqsədli aspiranturaya daxil olmuş və 1978-ci ildə "Bel osteoxondrozunun nevroloji təzahürləri olan xəstələrdə müxtəlif konsentrasiyalı radon vannalarının sinir-əzələ aparatına təsiri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Elə həmin ildə Azərbaycan Elmi-Tədqiqat Kurortologiya və Fizioterapiya institutunda sinir xəstəlikləri şöbəsində kiçik elmi işçi vəzifəsinə təyin olunmuş, 1981-ci ildə müsabiqə yolu ilə baş elmi işçi vəzifəsinə seçilmişdir.



Ə.Musayev 1982-1986-cı illərdə Moskva şəhərində Mərkəzi Elmi-Tədqiqat Kurortologiya və Fizioterapiya İnstitutunun sinir xəstəlikləri şöbəsində doktoranturada olmuşdur. 1987-ci ildə "Sinir sisteminin müxtəlif səviyyəli zədələnmələri olan xəstələrdə müalicəvi fiziki amillərin tətbiq edilməsinin kliniki-neyrofizioloji əsasları" mövzusunda dissertasiya müdafiə edərək, tibb elmləri doktoru elmi dərəcəsi almışdır. O, 1988-ci ilədək Azərbaycan ET Kurortologiya və Fizioterapiya İnstitutunda baş elmi işçi vəzifəsində çalışmış, 1988-ci ildə həmin instituta Elmi-Tədqiqat Tibbi Bərpa və Təbii Amillərlə Müalicə İnstitutu adı verilmiş və Ə.Musayev direktorun elmi işlər üzrə müavini, 1993-cü ildən isə həmin institutun direktoru vəzifəsinə təyin olunmuşdur. 1994-cü ildə Azərbaycan Tibb Universitetinin Fizioterapiya kursunun müdiri seçilmişdir. 2011-ci ildə isə həmin kurs universitetin Müalicə Bədən Tərbiyəsi kursu ilə birləşdirilmiş, Fizioterapiya və tibbi reabilitasiya kafedrası yaradılmışdır. Professor Əlişir Musayev həmin vaxtdan hal-hazıradək kafedraya rəhbərlik edir. 1999-cu ildə Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının qərarı ilə "Sinir xəstəlikləri" , "Kurortologiya və Fizioterapiya" ixtisasları üzrə ona professor elmi adı verilmişdir.

Professor Ə.Musayev məhsuldar elmi fəaliyyətlə yanaşı elmi və təcrübi təbabət üçün kadrların hazırlanmasına da xüsusi diqqət yetirir. Onun rəhbərliyi altında 2 doktorluq, 19 namizədlik dissertasiyası müdafiə olunmuşdur.

Professor Ə.Musayevin apardığı elmi tədqiqatlar içərisində periferik sinir sisteminin ən çox yayılmış xəstəliklərinin, həmçinin odlu silah yaralanmalarının, baş beyin damar xəstəliklərinin fiziki üsullarla müalicə və reabilitasiyasına həsr olunmuş işlər xüsusi əhəmiyyət kəsb edir. Onun geniş elmi araşdırmalarının nəticələri 458 elmi əsərdə, o cümlədən 3 monoqrafiyada, sinir sistemi xəstəliklərinin yeni müalicə üsullarını təklif edən 13 ixtira və patentlərdə, 8 səmərələşdirici təklifdə, 19 metodik tövsiyədə öz əksini tapmışdır. O, Azərbaycan Milli Ensiklopediyasında "kurortologiya" bölməsinin və "Ümumi fizioterapiya" dərsliyinin müəllifidir. Müəllifi olduğu məqalələrin çoxu Rusiyanın və uzaq xarici ölkələrin nüfuzlu elmi jurnallarında dərc edilmişdir.

Professor Ə.Musayev Moskvada nəşr olunan nüfuzlu beynəlxalq səviyyəli jurnalların redaksiya şuralarının üzvü, "Azərbaycan Kurortologiya, Fizioterapiya və Reabilitasiya" jurnalının baş redaktorudur.

Professor Ə.Musayev bir sıra xarici ölkələrlə sıx elmi əlaqələr yaratmışdır. O, Beynəlxalq reabilitoloqlar və fizioterapevtlər Assosiasiyasının idarə heyətinin, Ümumdünya və Avropa Nevroloqlar Assosiasiyalarının üzvü, Ümumdünya "Ağrı" və "Baş ağrısı" Elmi Cəmiyyətlərinin, Rusiyanın "Ağrı" regionarası Cəmiyyətin üzvüdür.

Əlişir müəllim elmi-pedaqoji fəaliyyətlə yanaşı geniş ictimai fəaliyyətlə də məşğuldur. O, 1993-2006-cı illərdə Səhiyyə Nazirliyinin Baş nevropatoloqu vəzifəsində çalışmış, nevrologiya üzrə həkimlərin Attestasiya Komissiyasının sədri olmuş, 1996-2002-ci illərdə ixtisaslaşdırılmış dissertasiya şurasına ("nevrologiya", "kurortologiya və fizioterapiya", "psixiatriya" ixtisasları üzrə) rəhbərlik etmiş, uzun müddət Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının tibb elmləri üzrə Ekspert Şurasının sədri olmuş, hal-hazırda isə sədr müavinidir, "Azərbaycan kurortoloqlar və fizioterapevtlər" cəmiyyətinin sədri, ATU-nun problem komissiyasının üzvüdür.

Professor Ə.Musayevin xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir.O, 1999-cu ildə Səhiyyə Nazirliyinin, 2003-cü ildə AMEA-nın Fəxri Fərmanı ilə təltif olunmuş, 2000-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, "Tərəqqi" medalı ilə təltif olumuşdur. 2001-ci ildə Beynəlxalq miqyasda əldə etdiyi elmi nailiyyətlərinə görə Amerika Bioqrafiya tədqiqatları Mərkəzi tərəfindən "Qold Rekord" medalı ilə təltif olunub.

Tibbi və bioloji elmlərin inkişafındakı əhəmiyyətli xidmətinə görə professor Ə.Musayev 2003-cü ildə Gürcüstan Respublikasının Profilaktik Təbabət və Ekologiya Akademiyasının həqiqi üzvü, 2005-ci ildə isə Rusiya Tibb Elmləri Akademiyasının fəxri doktoru seçilmişdir.

O, 2008-ci ildə Türk Dünyası Elmləri Akademiyasının həqiqi üzvü seçilmiş və bu Akademiyanın Qızıl medalına layiq görülmüşdür. 2009-cu ildə Avropa Təbiət Elmləri Akademiyasının akademiki və 2010-cu ildə Beynəlxalq Mühəndislik Akademiyasının müxbir üzvü seçilmiş, 2009-cu ildə BMT-nin İctimai Təltiflər Şurasının I dərəcəli Hippokrat ordeni ilə təltif olunmuşdur.

Ə.Musayev 2017-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Əlişir müəllimə möhkəm can sağlığı, uzun ömür və elmi-pedaqoji fəaliyyətində uğurlar arzulayırıq!

*Fizioterapiya və tibbi reabilitasiya kafedrasının kollektivi*

**ATU - 90**

# Elektron kitabxana müasir dövrün tələbidir

**Qarşıdan Azərbaycan Tibb Universitetinin 90 illik yubileyi gəlir. Universitetlə birlikdə onun ayrılmaz tərkib hissəsi olan Əsaslı Kitabxanamızın da yaranma tarixi başlayır. Bakı Darülfünundan bir fakültə kimi ayrılaraq, 1930-cu ildən Azərbaycan Tibb İnstitutu kimi fəaliyyətə başlayan universitetimizin Əsaslı Kitabxanası, elə ilk gündən kiçik bir fondla professor-müəllim və tələbə heyətinin xidmətində dayanmışdır. Universitetlə bərabər kitabxanamız da inkişaf yolu keçərək ən müasir universitet kitabxanaları sırasında dayanır.**



XXI əsr informasiya texnologiyalarının inkişafı və texniki tərəqqi əsridir. Müxtəlif növlü və məzmunlu sənədləri özündə cəmləşdirərək, onları mühafizə edən elektron informasiya daşıyıcılarının hazırlanması, sistemləşdirilməsi, mühafizəsi və şəbəkə rejimində uzaq məsafədən istifadəsi indi çox mühüm və əhəmiyyətlidir.

Universitet rəhbərliyinin, hörmətli rektorumuz professor Gəray Gəraybəylinin diqqət və qayğısı sayəsində kitabxanamız ən müasir informasiya texnologiyaları ilə təchiz olunmuş, bu sahədə ən son tələblərə cavab verən İRBİS-64 avtomatlaşdırılmış kitabxana-informasiya sistemi (AKİS) ilə təmin edilmişdir. Bu sistem kitabxanamızın beynəlxalq informasiya məkanına daxil olmasının, dünya standartlarına uyğun elektron kitabxananın və elektron kataloqunun yaradılmasının, təhsil və elmi tədqiqatlar üçün əsas amil olan və bütövlükdə cəmiyyətin inkişafına birbaşa təsir edən elektron mənbələrindən sərbəst istifadə olunmasının təminatçısıdır. Bu sistem imkan verir ki, biz öz zəngin kitab fondumuzu, həmçinin alimlərimizin elmi fəaliyyətlərinin nəticəsi olan kitab və jurnalları, məqalələri dünya istifadəçilərinə təqdim edək və eyni zamanda dünya kitabxanalarının zəngin kitab fondundan müəllim və tələbələrimizin istifadə etməsinə də şərait yaradaq. Hətta XVIII əsrə aid olan unikal kitabları belə qoruyub saxlayan kitabxanamız çox zəngin fonda malikdir. Hazırda bu zəngin fondun Elektron Kataloqunun yaradılması işi çox ciddi şəkildə davam etdirilir. Artıq tibbi ədəbiyyatın çox böyük bir hissəsi: 24 500 adda Azərbaycan, türk, rus, ingilis dillərində olan kitablar elektron kataloquna daxil edilmişdir. Həmçinin, 26.650 jurnal və 16.300 qəzet məqaləsi də elektron kataloqunda öz əksini tapmışdır. Qeyd edə bilərik ki, latın qrafikalı və kiril qrafikalı Azərbaycan dilində olan ədəbiyyatın tam olaraq elektron versiyası yaradılmışdır. Son dövrlərdə müəlliflər tərəfindən dərsliklərin, monoqrafiyaların disk şəklində də təqdim olunması, onların tələbələrin və digər istifadıçilərin üzünə elektron formada açıq olmasına şərait yaratmışdır.

Elektron kataloq kitabxana fondunun "güzgüsüdür" desək səhv etmərik. Onun vasitəsilə istifadəçilərə uzaq məsafədən operativ informasiya xidməti göstərmək, həmçinin fondun idarə olunmasını həyata keçirmək mümkündür. Bu kataloq biblioqrafik informasiya bazasının daha etibarlı qorunmasına şərait yaradır və istifadəçinin ona zərər yetirməsini praktiki olaraq qeyri mümkün edir. Kitabxananın İnternetdə yerləşdirilmiş elektron kataloqu dünyanın istənilən nöqtəsindən istifadəçiyə kitabxanamızın fondu ilə tanış olmağa, lazımi ədəbiyyatın axtarışını aparmağa və tapılmış ədəbiyyatı sifariş etməyə, ədəbiyyatın elektron variantı olduqda isə, onu əldə etməyə imkan verir. Universitet əməkdaşlarının elmi əsərlərinin, dərsliklərin, dərs vəsaitlərinin tammətnli elektron versiyalarını yaradaraq daha səmərəli elektron xidməti həyata keçirmək, kitabxanamızı ən qabaqcıl elmi informasiya mərkəzinə çevirmək qarşımızda duran vacib işlərdəndir.

Elektron kataloq kitabxanalararası biblioqrafik informasiya mübadiləsini təmin edir və kitabxananın "imicini" formalaşdırır. Kitabxananın yüksək nüfuza və reytinqə malik olması üçün elektron kataloq zəngin, dolğun məlumat bazasına və mükəmməl axtarış aparatına malik olmalıdır. Məhz bununla kitabxana coğrafi uzaqlıqdan, yerləşdiyi məkandan asılı olmayaraq özünə dünyanın istənilən yerindən istifadəçi cəlb edərək xidmət göstərə bilər.

Biz üzərimizə düşən vəzifənin məsuliyyətini dərk edərək yüksək səviyyəli, elmin tələblərinə cavab verə biləcək bir elektron kataloqunun yaradılmasına çalışırıq.

Elektron kitabxanalar müasir dövrün əsas tələbi olub, cəmiyyətin informasiyalaşdırılmasında, elmi-ədəbiyyatın təbliğində və əldə edilməsində mühüm rol oynayır. Elektron kitabxanalar informasiya mübadiləsi sistemlərinin, virtual informasiya mühitinin yaradılmasına, distan təhsilin inkişafına, cəmiyyətin peşə və ümumi mədəniyyət səviyyəsinin artmasına xidmət göstərir. Onun vasitəsilə oxucular dünyanın istənilən nöqtəsindən 24 saat müddətində kitabxananın informasiya bazasından istifadə edə bilirlər.

Müasir dövrdə ən operativ informasiyanı əldə etmək üçün internetdən istifadə əvəzsiz sayılır. Elmi informasiya təminatını isə elektron kitabxanalar daha çox təmin edir. Müəllim, tələbə və ya elmi işçi, əlavə vaxt itkisinə yol vermədən istədiyi kitabı, məqaləni, informasiyanı, olduğu məkandan asılı olmayaraq, internetə yerləşdirilmiş Elektron Kitabxanaya daxil olmaqla əldə edə biləcəkdir. Elektron Kitabxana həm də kitabxana fondunun qorunub saxlanılmasına xidmət edir. Xüsusilə nadir və bir nüsxədən ibarət olan kitablar, internetdə öz əksini taparaq, ələ verilmədən, çox sayda tələbatçı tərəfindən eyni zamanda istifadəsinə şərait yaradılır.

Görüləcək işlər çoxdur və biz onların öhtəsindən layiqincə gəlməyə çalışırıq.

**Gülarə QARAYEVA ,**
*Əsaslı Kitabxananın elmi kitabişləmə və kataloqlaşdırma şöbəsinin müdiri*

# "Kamilliyə səsləyən poeziya" adlı tədbir

**Bioloji kimya kafedrasında dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş "Kamilliyə səsləyən poeziya" adlı tədbir keçirilib.**



Tədbiri giriş sözü ilə açan kafedranın müdiri, professor Gülnarə Əzizova şairin həyatı və yaradıcılığı ilə bağlı qısa məlumat verib. İ.Nəsimini dövrünün fəlsəfəsini yaxşı mənimsədiyini və söz qüdrətindən məhatətlə istifadə etməklə özünün dərin fəlsəfi poeziyasını yaratdığını qeyd edən professor G.Əzizova şairin yaradıcılığından nümunələr də səsləndirib.

Tədbirdə Epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev, İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayev də çıxış edib. Natiqlər Nəsimi fəlsəfəsi, onun ana dilimizin incəliklərindən istifadə edərək bənzərsiz poeziya nümunələri yaratdığından söhbət açıblar. Stomatologiya fakültəsinin tələbələri Mohəmməd Ərdəbili, Kave Fərayedinin səsləndirdiyi şeirlər tədbir iştirakçılarına xoş ovqat bəxş edib.

Kafedranın əməkdaşı Hikmət Məmmədovun Nəsimi obrazında tarın sədaları altında səsləndirdiyi qəzəllər tədbir iştirakçılarını bir anlıq duyğulandırıb. Həmçinin tədbirin yüksək zövqlə tərtibatı da diqqətdən qaçmayıb və hər kəs tərəfindən təqdir olunub.

# Rus dilində yeni vəsait işıq üzü görüb

**Bu günlərdə ATU-nun Patoloji fiziologiya kafedrasının əməkdaşları tərəfindən rezidenturaya qəbul edilmək arzusunda olanlar üçün rus dilində “Patoloji fiziologiya” adlı yeni dərs vəsaiti nəşr olunmuşdur.**




Patoloji fiziologiya kafedrasının müdiri, Əməkdar elm xadimi, professor Sabir Əliyev və həmin kafedranın professoru Məmməd Əliyev, dosentləri Sevinc Pənahova, Cəmilə Əliyevanın müəllifliyi ilə işıq üzü görən vəsaitdə patoloji fiziologiyanın ən aktual məsələləri öz əksini tapmışdır. İki hissədən - ümumi və kliniki patofiziologiyadan ibarət yeni dərs vəsaiti 2015-2016-cı illərdə buraxılmış eyni adlı 2 cildlik dərsliyin əsasında zəruru əlavələrlə nəfis şəkildə hazırlanmışdır. Onu da bildirək ki, bu vacib dərs vəsaiti məxfiliyi qorunmaqla İ.Seçenov adına I Moskva Tibb Universitetinə araşdırılmağa göndərilmiş və müsbət rəy almışdır.

Qeyd edək ki, yeni dərs vəsaiti Dövlət İmtahan Mərkəzinin tövsiyəsi ilə nəşr edilib. Layihənin rəhbərləri Dövlət İmtahan Mərkəzinin direktorlar şurasının sədri, professor Məleykə Abbaszadə və İ.Seçenov adına I Moskva Tibb Universitetinin Bakı filialının rektoru, professor Əziz Əliyevdir.

İlk növbədə rezidenturaya hazırlaşan ali tibb məktəblərinin məzunları üçün nəzərdə tutulan vəsaitdən tələbələr və həkimlər də istifadəfadə edə bilərlər.

# Beynəlxalq Qızıl Xaç Cəmiyyətinin Azərbaycan Nümayəndəliyinin əməkdaşları tələbələrlimizlə görüşüblər

**Noyabrın 21-də Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Nümayəndəliyinin əməkdaşlarının Azərbaycan Tibb Universitetində tələbələrlə görüşü olub.**





ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov universitet rəhbərliyi adından qonaqları salamlayaraq, görüşün məqsədi barədə söhbət açıb və onları tələbələrə təqdim edib: “ATU-nun rektoru, professor Gəray Gəraybəylinin göstərişi ilə mən və universitetin Tələbə Gənclər Təşkilatının sədri Rauf Vəliyev BQXK-nin Azərbaycan Nümayəndəliyinin qonağı olduq. Məhsuldar bir görüş keşirildi. Bu da o görüşün nəticəsidir ki, bir yerə toplanmışıq”.

Dosent M.Orucov qonaqların BQKX-nin Azərbaycan Nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlahə Hüseynovanı və nümayəndəliyin əməkdaşı Tərlan Ağayevi tələbələrlə tanış edib. Bildirib ki, BQXK-nin Azərbaycan Nümayəndəliyinin əməkdaşları təmsil olunduqları qurumla bağlı sizlərə geniş məlumat verəcək. Həmçinin, qonaqlarımız universitetimizdə könüllülərdən ibarət “İlk yardım” adlı bir tələbə klubunun təşkil olunmasını, sizlərə bu istiqamətdə təlimlərin keçirilməsini istəyirlər”.

Dosent M.Orucov insanlara ilk yardımın əhəmiyyətinin vacibliyinə toxunaraq yeni yaranacaq klubun ölkəmizdə və universitetlər arasında birinci olacağına da ümid etdiyini bildirib.

Nümayəndəliyin əməkdaşı Tərlan Ağayev çıxışı zamanı özünün ATU-nun məzunu olduğunu bildirib. O, 10 ildən sonra təkrar ATU-da olmasından, tələbələrlə görüşündən məmnunluğunu izhar edib. Sonra münaqişə zonasında ilk tibbi yardımın necə təşkil edilməsi ilə bağlı görüş iştirakçılarına ətraflı məlumat verib, mövzu ilə əlaqədar video görüntülər nümayiş etdirib.

Nümayəndəliyin Beynəlxalq əlaqələr şöbəsinin müdiri İlahə Hüseynova da öz çıxışında BQXK və bu təşkilatın hansı məqsədlə yaradılması barədə tələbələri məlumatlandırıb: “Adından göründüyü kimi Beynəlxalq Qızıl Xaç Komitəsi beynəlxalq qurumdur. Silahlı münaqişələr zamanı münaqişədən əziyyət çəkənlərə, yaralılara humanitar yardım etmək məqsədilə 1863-cü ildə yaradılıb. Mərkəzi ofisi Cenevrədədir. Təşkilatın Azərbaycan nümayəndəliyi ölkəmizdə Qarabağ münaqişəsi ilə əlaqədar fəaliyyət göstərir”.

İ.Hüseynova BQXC-nin ölkəmizdəki geniş fəaliyyətindən, münaqişə zonalarında görülən işlərdən, saxlanılan şəxslərlə və onların saxlanma şəraiti ilə maraqlanmalarından, Azərbaycan Qırmızı Aypara Cəmiyyəti ilə əməkdaşlığından, əsirlikdə olan şəxslərin qaytarılmasında təşkilatın missiyasından da geniş söhbət açıb.

Görüş diskussiya şəraitində başa çatıb. Tələbələri maraqlandıran suallara ətraflı cavab verilib.

**Qabil ABDULLAYEV**

# ATU-nun nümayəndələri Moskvada beynəlxalq konfransda çıxış ediblər

**Noyabrın 20-22-də “Sağlamlıq, rifah və təhsil: dayanıqlı gələcəyin qurulması” mövzusunda Sağlamlığı Təşviq edən Məktəblər üzrə 5-ci Avropa Konfransı keçirilib. Moskvada Dünya Səhiyyə Təşkilatının Avropa regional bürosu, Avropa “Sağlamlığı təşviq edən məktəblər” şəbəkəsi (School Health Education - SHE) və Rusiya Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən beynəlxalq toplantıda 500-ə yaxın qonaq iştirak edib.**




Konfransa Azərbaycan, Almaniya, Fransa, Böyük Britaniya, Norveç, Niderland daxil olmaqla ümumilikdə 53 ölkədən tibb mütəxəssisləri qatılıblar. Azərbaycan nümayəndə heyətində Azərbaycan Tibb Universitetinin (ATU) II Uşaq xəstəlikləri kafedrasının professoru Hüseyn Qabulov, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri dosent Şəhla Balayeva, kafedranın dosenti Zöhrə İsmayılova, kafedranın doktorantı Qoşqar Orucov, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadə, Səhiyyə Nazirliyinin İlkin tibbi yardımın təşkili şöbəsinin məsləhətçisi Aynur Zeynalova, İSİM-in İlkin səhiyyə və ailə təbabəti şöbəsinin müdiri Lütfi Qafarov təmsil olunublar.

Konfransın əsas məqsədi məktəblilərin sağlamlığının qorunması, təhsil keyfiyyətinin yüksəldilməsi, tədris prosesi zamanı uşaq və yeniyetmələrin fiziki və psixi rifahının təmin edilməsi sahəsində müxtəlif təşkilatların birgə fəaliyyət göstərməsinin əhəmiyyətini vurğulamaqdan ibarət olub.

Həmçinin, bu istiqamətdə qarşılıqlı əməkdaşlığı genişləndirmək, təcrübə mübadiləsi aparmaq və uğurlu nəticələri müzakirə etmək də tədbirin hədəflərinə aiddir.

Bu mötəbər tədbirdə ATU-nun əməkdaşları ali məktəbi aktiv təqdim ediblər. Hüseyn Qabulov “Uşaqların sağlamlığının qorunmasında sektorlararası qarşılıqlı təcrübə”, Şəhla Balayeva “Məktəblilərin sağlamlığı təhsil müəssisələrinin sağlamlığı qoruma fəaliyyətinin səmərəliliyinin göstəricisi kimi”, Qoşqar Orucov “Azərbaycan məktəblərində zorakılığın profilaktikası” mövzuları üzrə ingilis dilində təqdimatla çıxış ediblər.

Azərbaycan nümayəndə heyətinin üzvləri konfrans zamanı müxtəlif mövzular üzrə təşkil edilən sessiya və müzakirələrə də qatılıb. Konfransın son günü “Məktəblərdə sağlamlığın qorunması” üzrə Moskva Bəyannaməsi qəbul edilib.

# Qida Təhlükəsizliyi Agentliyi əməkdaşlarının tələbələrlə görüşü olub

**Noyabrın 26-da Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşlarının “Könüllü qida nəzarətçisi” proqramı çərçivəsində Azərbaycan Tibb Universitetinin tələbələri ilə görüşü olub.**



Tədbiri ATU-nun İctimai səhiyyə fakültəsinin dekan müavini Qalina Qəniyeva açaraq qonaqları görüş iştirakçılarına təqdim edib. Bildirib ki, ATU-nun tələbələri baza olaraq 2 ildir ki, Qida Təhlükəsizliyi İnstitutunda təcrübə keçirlər. Keçən il qabiliyyətli, bacarıqlı 18 məzunumun Qida Təhlükəsizliyi Agentliyi tərəfindən seçildiyini və hazırda Agentlikdə çalışdığını qeyd edib. Tələbələrə təqdim olunan layihənin onların Agentliklə əməkdaşlığını daha da genişləndirəcəyini dilə gətirib. Sonra layihənin mahiyyəti ilə bağlı məlumat vermək üçün sözü Agentliyin İdarə Heyətinin sədr müavini səlahiyyətlərini icra edən Camal Quliyevə verib.



Natiq “Könüllü nəzarətçi proqramı”nın tələbələrin təhsilinin keyfiyyətinin praktik istiqamətlərdə inkişaf etməsində böyük rol oynayacağını qeyd edib: “Eyni zamanda biz bu proqram çərçivəsində öz sıralarımıza sizin aranızdan layiqli kadrları seçmək imkanlarına malik olacağıq”.

O, dünya ölkələrində istehlakçıya çatdırılan qidaların keyfiyyətində ciddi problemlər aşkar olduğunu da bildirib: “Son illər ölkə rəhbərliyi tərəfindən qida təhlükəsizliyi sahəsinə xüsusi diqqət göstərilib. Qida təhlükəsizliyinin keyfiyyətini təmin etmək məqsədilə Qida Təhlükəsizliyi İnstitunun yaradılması bu sahəninin inkişafına bir stimul verib. İnstitut MDB məkanında fəaliyyət göstərən institutlara bənzəmir və kriteriyaları Avropa sisteminə uyğunlaşdırılıbdır".

C.Quliyev eyni zamanda proqramın məqsədi və qarşıda duran vəzifələrlə bağlı tələbələrə ətraflı məlumat verib: ”Proqramda nəzərdə tutulan məqsədlərdən biri də ondan ibarətdir ki, Agentlik səlahiyyətləri çərçiviəsində ölkədə fəaliyyət göstərən universitetlərlə əməkdaşlıq etsin. Laboratoriya və elmi-tədqiqat işlərinin qapısını sizlər üçün açıq elan edək. Aranızdan seçilənləri könüllülük prinsipi əsasında sıralarımıza cəlb edək. Çalışın proseslərdə yaxından iştirak edin ki, praktik olaraq vərdiş və bacarıqlarınızı artıra biləsiniz. Hesab edirik ki, siz bu çağırışa qoşulacaq və ölkəmiz üçün əhəmiyyətli olan qida təhlükəsizliyinin təşkilinə töhfənizi verəcəksiniz”.

C.Quliyev könüllü tələbələrin layihədə iştirak etmələri üçün onların Agentliyə müraciət etmələrini, qeydiyyatdan keçmələrini, qiymətləndirmə aparıldıqdan sonra təlimlərdə iştirak etmələrini də tövsiyə edib: “Hesab edirəm ki, sizə təqdim olunan layihəni dəyərləndirəcək və iştirak edəcəksiniz. Layihədə sizin maddi və mənəvi stimullaşdırılmanız da nəzərdə tutulub. İçtirakçı olmaqla bu sahəyə marağınız artacaq və ölkəmizdə qida təhlükəsizlik sisteminin formalaşmasında yaxından iştirak edəcəksiniz”.

C.Quliyev həmçinin tələbələrin çoxsaylı suallarını da cavablandırıb.

**ATU-nun mətbuat xidməti**

# “Laboratoriya işi” ixtisası üzrə rezidentlərin buraxılış yekun attestasiyası keçirilib

**ATU-nun biokimya kafedrasının elmi-tədqiqat və tədris təcrübə bazasında rezidentlərin biliklərinin qiymətləndirilməsi üçün yekun attestasiyası keçirilmişdir.**



Attestasiyada ATU-nun müxtəlif klinikalarında, Mərkəzi Neftçilər Xəstəxanasında, Respublika Diaqnostika Mərkəzində, Mərkəzi Klinik Xəstəxanada və DİN-nin A.Heydərov adına Mərkəzi Klinik Hospitalında yüksək ixtisaslı mütəxəssis həkim kimi baza təhsili almış 13 rezident iştirak etmişdir. Attestasiya komissiyasının tərkibinə ATU-nun biokimya kafedrasının, Ə.Əliyev adına Respublika Həkimləri Təkmilləşdirmə İnstitutunun laborator-diaqnostika kafedrasının və B.Eyvazov adına ET Hematologiya və Transfuziologiya institutunun mərkəzi laboratoriyasının əməkdaşları daxil idi. Rezidentlərimiz yüksək nəzəri biliklər və praktik vərdişlər nümayiş etdirərək xalqımızın sağlamlığı keşiyində fədakar əməyə hazır olduqlarını göstərmişlər.

# Yaradılmış şəraitdən razı qaldıq

**Bu yay ailəmlə birgə Azərbaycan Tibb Universitetinin Nabranda yerləşən "Təbib" İstirahət Düşərgəsində olduq. Yeni, müasir standartlara uyğun bu istirahət kompleksini ATU-nun əməkdaşlarına yaratdığı şərait üçün öncə ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə ailəmiz adından öz təşəkkürümü bildirirəm. Çünki ailəmlə düşərgədə mənalı istirahət edə bildik. Düşərgədə nəzarətin yüksək təşkilinə, xidmətin səviyyəsinə söz ola bilməz. Sadəcə, gəlib öz gözlərinlə görmək kifayət edir ki, düşərgə ilə bağlı təəssürat yaransın.**




Azərbaycan turizm şirkətlərinin xətti ilə yüksək məbləğ ödəyərək başqa dövlətlərə üz tutan ATU-nun əməkdaşlarının diqqətinə çatdırmaq istəyirəm ki, öz ölkəmizdə bu gün gözəl şərait yaradılıbsa, kənara üz tutmağa gərək qalmayıb.

Düzdür, bir neçə il bundan öncə bu istirahət düşərgəsində bir dəfə olmuşam. Ancaq o zaman indiki yüksək şərait olmadığı üçün bu məkanda ailəmlə bir gündən artıq qala bilmədim. Bu dəfə düşərgədə rastlaşdığım yeniliklər könlümü açdı, üzüm güldü. Fikrimi şeirlə ifadə etməli oldum:

*Gəlin dostlar, gözəlliyi görün siz,*
*Nələr yaradıblar, nələr "Təbib"də.*
*Füsunkar təbiət Xəzər boyunca,*
*Gül açıb könlümüz gülür "Təbib"də.*

ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımovun əraziyə dəfələrlə baş çəkməsi, istirahət edənlərin qayğıları, qida məhsullarının keyfiyyəti ilə maraqlanması bizi çox sevindirdi. Uşaqların istirahətlərinin mənalı keçməsi üçün yaradılan şəraitdən də razı qaldıq. Göstərilən diqqətə, yüksək səviyyəli xidmətə, zövqümüzə uyğun yaradılan şəraitə görə "Təbib" İstirahət Düşərgəsində istirahət etməyimi məsləhət görən II Müalicə-profilaktika fakültəsinin Həmkarlar Təşkilatının sədri, tibb üzrə fəlsəfə doktoru Nurlana xanım Əliyevaya dərin hörmət və ehtiramımı bildirirəm.

**Sara ŞƏRİFOVA,**
*Tədris Cərrahiyyə Klinikasının fizoterapiya şöbəsinin əməkdaşı, AJB-nin üzvü, Qızıl Qələm mükafatçısı*

# "Debat" Klubunun daxili turniri keçirilib

**◆ ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə "Debat" Klubunun XVII daxili turniri keçirilib.**

Ümid Mahmudov və Murad Babayev forumun ən yaxşı hakimləri, Yunis Məmmədli isə forumun ən yaxşı məşqçisi seçilib.

Azərbaycan Tibb Universiteti "Debat" Klubunun XVII Daxili Debat Forumunun ən yaxşı natiqləri Məhintac İbrahimova qızıl, Dilbər Rahim Əliyeva və Gülnaz Hüseynova bürünc medalla mükafatlandırılıblar. Nigar Quliyeva, Məhəmməd Məmmədov, Aysel İsmayıllı, Fidan Rəsul, Günay Hüseynli, Aliyə Şahbazova və Loğman İsgəndərliyə isə qalib sertifikatları təqdim olunub.



# Tələbələrimiz bilik yarışında uğurlu nəticə göstəriblər

**Azərbaycan Tibb Universitetinin tələbələri "Heydər Əliyev və Azərbaycan tarixi" VI Ümumrespublika Bilik yarışında uğurla iştirak ediblər. ATU-nun İctimai fənlər kafedrasının təşkilatçılığı ilə yarışmaya qatılan universitet komandasının üzvləri sertifikata layiq görülüblər.**



"Heydər Əliyev və Azərbaycan tarixi" VI Ümumrespublika Bilik yarışı noyabrın 12-də keçirilib. Heydər Əliyev Mərkəzinin ali təhsil müəssisələri arasında keçirdiyi bu yarışma Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyatının, çoxşaxəli fəaliyyətinin və irsinin öyrənilməsinə həsr olunmuşdu.

Yarışmada universitetimizi təmsil edən komandanın formalaşmasında və eləcə də tələbələrin yüksək səviyyədə hazırlanmasında İctimai fənlər kafedrasının baş müəllimləri A.Təhməzova və L.Talışinskinin əməyini xüsusi qeyd etmək lazımdır. Komandamızın tərkibinə qatılan tələbələrdən Emil Aslan (qrup $360^{a}$, kapitan), Azər Qaracayev (qrup $117^{r-4}$), Fidan Qaracayeva (qrup $218^{r-1b}$), Zahid Əliyev (qrup $120^{a}$), Ramin Əliyev (qrup $317^{a-7}$), Nərmin Quluzadə (qrup $214^{b}$), Mircavad Mirbabayev (qrup $782^{b}$) və Fərid Məhərrəmli (qrup $219^{r-1b}$) yarışda müvəffəqiyyətlə iştirak ediblər.

Tələbələrimizi göstərdikləri bu uğurlu nəticəyə görə təbrik edir və onlara yeni uğurlar arzulayırıq.

# Ur xəstəliyi olanların feyxoa yeməsi faydalıdır

**Sitrus meyvələrindən olan feyxoa ağacı hündürlüyü 6 metrə çatan həmişəyaşıl, alçaq gövdəli bitkidir. Mənfi 16 dərəcəyə qədər temperatura davam gətirir. Əkiləndən üç il sonra meyvə verməyə başlayan ağacın məhsulu çiçəkləmə dövründən dörd-beş ay sonra yetişir və yığılır.**

AZƏRTAC tibbi saytlara istinadla xəbər verir ki, Braziliya təbiətşünası Joao da Silva Feyxo ilk dəfə feyxoanı XIX əsrdə yetişdirib və meyvə adı onun şərəfinə verilib. Qərbi Paraqvay və cənubi Braziliyada təbii halda yetişir. Ölkəmizdə onu Lənkəran və Astara rayonlarında yetişdirirlər.



Feyxoanın insan sağlamlığı üçün çox faydası var, ondan dərman kimi də istifadə olunur. Feyxoanın tərkibində olan S vitamini soyuqdəymə zamanı və qrip epidemiyalarında əvəzolunmaz vasitədir. Onun tərkibində olan dəmir, selen, maqnezium maddələri orqanizmin bir sıra funksiyalarında müsbət rol oynayır.

Onun tərkibində suda həll olunan yod birləşmələrinin olması meyvəyə xüsusi özəllik verir. 1 kiloqram feyxoanın tərkibində 2 milliqramdan 10 milliqrama qədər yod var. Ona görə də yod çatışmazlığı xəstəliyindən əziyyət çəkənlər ondan istifadə etməlidirlər. Ur xəstəliyi olanlar üçün feyxoanı yemək və şirəsini içmək çox faydalıdır.

Feyxoanın lətinin ağ olması meyvənin tam yetişmədiyini göstərir. Lətin tünd və ya açıq qəhvəyi rəngdə olması isə onun xarab olmasına işarədir.

Feyxoanın xüsusilə qabığında olan fenol birləşmələri antioksidantlar sayılır. Antioksidantlar xərçəng xəstəliyinin profilaktikası üçün olduqca vacib olan maddələrdir. Soyuqdəymədən əziyyət çəkənlərə feyxoadan hazırlanmış çay içmək məsləhətdir. Feyxoa arterial təzyiqin tənzimlənməsinə və bağırsaqların fəaliyyətini yaxşılaşdırmağa da kömək edir.

Feyxoadan zəhərlənmə riski böyükdür. Tərkibində şəkərin miqdarı çox olduğuna görə diabet və piylənmədən əziyyət çəkənlərə feyxoa yemək məsləhət görülmür. Körpə uşaqlara da onun verilməsi düzgün deyil.

## Allah rəhmət eləsin!

Farmakologiya kafedrasının əməkdaşları kafedranın dosenti Ülkər Məcidovaya qaynanası

**Suğra xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Farmakologiya, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedralarının əməkdaşları Tibbi mikrobiologiya və immunologiya kafedrasının müdiri, professor Həqiqət xanım Qədirovaya həyat yoldaşı

**Rauf Rzayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Farmakologiya, Qidalanma və kommunal gigiyena, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedralarının əməkdaşları Tibbi mikrobiologiya və immunologiya kafedrasının professoru Mehman Əliyevə həyat yoldaşı

**İradə xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Xarici dillər kafedrasının əməkdaşları uzun illər kafedranın müəllimi vəzifəsində çalışmış

**Əliyeva İradə Sücayət qızının**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

II mamalıq ginekologiya kafedrasının əməkdaşları kafedranın assistenti Tamilla Axundovaya həyat yoldaşı

**Rasim Musayevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Farmakologiya, Tibbi və bioloji fizika kafedralarının əməkdaşları Uşaq cərrahlığı kafedrasının professoru Çingiz Quliyevə oğlu

**Səbuhi Quliyevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın rezidenti Nəsib Həsənliyə anası

**Həbibə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Almaz Qaragözovaya qardaşı oğlu

**Allahyar Qaragözovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İctimai fənlər kafedrasının dosenti Yavər Vəliyevə bacısı qızı

**Arzu xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Histologiya, embriologiya və sitologiya kafedrasının əməkdaşları kafedranın dosenti Ağayev Yadigar Əli oğluna bacısı oğlu

**Gəray Nəsirovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ümumi və toksikoloji kimya kafedrasının əməkdaşları kafedranın assstenti Dostu Qafarovaya atası

**Sahib müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin I kurs, $119^{a-7a}$ qrup tələbəsi Mustafazadə Nihad Arzu oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İctimai səhiyyə fakültəsinin I kurs, $319^{a-1a}$ qrup tələbəsi Dərgahova Jalə Zakir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır

Stomatologiya fakültəsinin IV kurs, $783^{b}$ qrup tələbəsi İsgəndərli Həsən Habil oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Heybətova Susanna Arif qızına 1988-ci ildə 1№-li Bakı Tibb Məktəbi tərəfindən tibb bacısı ixtisası üzrə verilmiş diplom itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $219^{a-11a}$ qrup tələbəsi Vəlizadə Zərif Rəfail qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $46^{a}$ qrup tələbəsi Nurizadə Qeyrət Əvəz oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, $212^{a}$ qrup tələbəsi Rüstəmzadə Fidan Qulam qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İctimai səhiyyə fakültəsinin I kurs, $319^{r-1a}$ qrup tələbəsi Musayeva Ofelya Vüqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Mustafayeva Esmira Dənizxan qızına 2011-2012-ci tədris ilində IX sinfi bitirməsinə dair verilən əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, $418^{i3c}$ qrup tələbəsi Sajadi Sara-Sadat Seyd Hosin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - $98^{c}$
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200